# Biz haqlıyıq, biz zəfər çalacağıq!

*Müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil... Bu, bizi, Azərbaycan xalqını çox məmnun edir. Bu, bir daha göstərir biz bütün dövrlərdə – yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 1 noyabr 2020-ci il**

# Azərbaycan tək deyil...

*Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq... Qarabağ məsələsini, davam edən bu əməliyyatları vətəndaşlarımız çox yaxından izləyir və bizə daim "Azərbaycana daha çox dəstək verin, onu tək qoymayın", – deyə xəbərdarlıqlar edirlər. "Bizi də cəbhəyə göndərin" deyən çoxları var. Əminəm ki, Sizə yazılan məktublarda da bunlar vardır.*

**Mövlud ÇAVUŞOĞLU**
**Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri**
**Bakı, 1 noyabr 2020-ci il.**



Qardaş ölkənin Xarici İşlər naziri-nin – bugünkü türk dünyasının ən ünlü diplomatının ötən bazar günü Bakıda səsləndirdiyi bu fikirlər təkcə qürur, iftixar yaratmırdı, həm də ürəkləri riqqətə gətirirdi. Onun Bakı səfəri barədə qeydlərimizi qələmə almazdan əvvəl ölkəmiz və xalqımız üçün həddən artıq məsuliyyətli, kifayət qədər həssas olan bu günlərdə bizə hayan durmaq üçün Azərbaycan paytaxtına göndərilmiş bu siyasətçi diplomatın həyat tarixçəsinə qısa nəzər salmaq istəyirik. Çünki o, Avropa qurumlarında çalışdığı illərdə heç bir türk diplomatının qazanmadığı uğurlara imza atmışdır.

Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi Ədalət və İnkişaf Partiyasının təsisçi üzvü olan 52 yaşlı bu diplomat 2003-2014-cü illərdə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) vitse-prezidenti, Türk Heyəti Rəhbərliyi, Miqrasiya, Qaçqınlar və Əhali Komitəsi Rəhbərliyi, Miqrasiya Alt Komitəsi Rəhbərliyi, Turizm İnkişaf Alt Komitəsi Rəhbərliyi, Nəzarət Komitəsi, İqtisadi İşlər və İnkişaf Komitəsi, Hüquq və İnsan Haqları Komitəsi, Siyasi İşlər və Demokratiya Komitəsinin üzvü kimi müxtəlif vəzifələri icra etmişdir. 2010-2012-ci illərdə AŞPA rəhbərliyinə seçilmişdir. 7 Aprel 2014-cü ildə AŞPA-nın fəxri üzvü olmuşdur. 27 yanvar 2012-ci ildən 31 yanvar 2014-cü ilədək Venesiya Komissiyasında AŞPA-nı təmsil etmişdir. 2007-2010-cu illərdə Avropa Təhlükəsizlik və Müdafiə Assambleyası (Qərbi Avropa Birliyi Assambleyası) Türk Heyəti Rəhbərliyi vəzifəsini icra etmişdir. 26 dekabr 2013-cü ildən 29 avqust 2014-cü ilədək Avropa Birliyi naziri və baş müzakirəçi kimi fəaliyyət göstərmişdir.

Əvvəllər üç dəfə Türkiyənin Xarici İşlər naziri vəzifəsinə təyin edilsə də, politoloqların fikrincə, onun Türkiyədə Prezident İdarəetmə Sisteminin ilk Xarici İşlər naziri vəzifəsinə təyin olunması daha mühüm faktdır.

Hazırda bu postda fəaliyyətini uğurla davam etdirən cənab Mövlud Çavuşoğlunun Bakıya iki gün əvvəlki səfəri zamanı dediyi fikirlərin istənilən türksevər insanın ürəyində riqqət yaratdığını söylədik. Ancaq onun 2020-ci il fevralın 6-da Bakıda olarkən dövlət başçımıza xitabən dediyi sözlər müasir tariximizin səmimiyyət, saflıq və təmizlik zirvəsi kimi hələ uzun illər xatırlanacaq: "Sizin "Türkiyə burada yoxdur, amma mən varam, biz varıq" sözlərinizi heç bir türk, Türkiyə Cümhuriyyəti vətəndaşı unuda bilməz. Sizin liderliyinizlə bütün bu çətinliklərə qarşı işbirliyimizi, əməkdaşlığımızı davam etdirəcəyik və Sizin liderliyinizlə Türkiyəni və Azərbaycanı, inşallah, hədəflərinə çatdıracağıq. İkili standartlarla, bizə bu cür mövqe nümayiş etdirənlərə qarşı biz də mübarizəmizi, inşallah, birlikdə davam etdirəcəyik. Hər zaman söylədiyimiz kimi, Türkiyənin olduğu qədər Azərbaycanın haqqını və haqlı mübarizəsini də müdafiə etmək bizim üçün vəzifədir".

Bu təmənnasız qardaşlıq münasibətləri haqqında əlavə nə demək olar ki? Şəxsən mən – əlli ilə yaxın qələmlə çalışan bir azərbaycanlı – qardaşın qardaşa olan bu sədaqəti haqqında hər şeyi ifadə edə biləcək söz tapmaqda acizəm. Amma onu deyə bilərəm ki, cənab Çavuşoğludan bu ilin fevralında eşitdiyimiz "Türkiyəni və Azərbaycanı, inşallah, hədəflərinə çatdıracağıq" tezisi artıq reallaşmaq üzrədir.

Prezident İlham Əliyev ötən bazar günü cənab Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Türkiyənin daim Azərbaycanın yanında olduğunu tam mənası ilə dilə gətirdi. Prezident xatırlatdı ki, müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır: "Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Bu siyasi və mənəvi dəstək bu gün də davam edir. Həm hörmətli Prezident, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin Sədri, siz – Xarici İşlər naziri, Müdafiə naziri və digər yüksəkvəzifəli şəxslər dəfələrlə Azərbaycana dəstək göstərmisiniz. Bu siyasi və mənəvi dəstək, əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk".

Dövlət başçımız cənab Çavuşoğlu ilə söhbətinin nəinki Ermənistanda və ona himayədarlıq edən ölkələrdə, hətta bütün dünyada maraqla gözlənildiyini nəzərə alaraq, növbəti dəfə düşmənə və dünya ictimaiyyətinə mesaj göndərdi: "Biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, üç dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən, Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur."

Prezident dünya ictimaiyyətinə eşitdirir ki, əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır. Ancaq dünya ictimaiyyəti Ermənistanı haqq yoluna dəvət etmək üçün heç bir cəhd göstərmir. Onda isə Azərbaycanın mövqeyini eşitməli olurlar. O mövqe Azərbaycan Prezidentinin dilindən olduqca qətiyyətli və aydın şəkildə səsləndirilir: "Ümid edirəm ki, bu proses uzun sürməyəcək. Çünki biz 30 il gözləmişik. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik".

Türkiyə dövlətinin və vətəndaşlarının bu həssas dönəmdə Azərbaycanın yanında olduğuna görə növbəti dəfə öz minnətdarlığını dilə gətirən Prezident İlham Əliyev qardaş ölkədəki jurnalistlərin fəaliyyətinə də yüksək dəyər verdi: "Türkiyənin media nümayəndələri də gecə-gündüz döyüş meydanlarında öz həyatlarını risk altına atırlar və bu görüntüləri dünya daha çox Türkiyə mediası vasitəsilə görür və bilir. Gəncənin, Bərdənin namərdcəsinə bombalanmasından sonra buraya ilk gələn bizim Türkiyədən olan qardaşlarımızdır. Ona görə bu, bir daha Türkiyə–Azərbaycan birliyini göstərir. Hər zaman mən əziz Qardaşımla bu barədə danışanda biz bilirdik ki, bu birlik sözdə deyil, əməldədir və bunu bu gün bütün dünya bilir".

Bəli, günümüzün Türkiyə–Azərbaycan əməkdaşlığının ( türkiyəli həmkarlarımız bu ifadəni Azərbaycan–Türkiyə əməkdaşlığı formasında yazırlar) səviyyəsi artıq dünyanın hər yerində, hamıya məlumdur. Cənab Mövlud Çavuşoğlu isə həmin səviyyəni məhz qardaş kimi dilə gətirir: "Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq... Qarabağ məsələsini, davam edən bu əməliyyatları vətəndaşlarımız çox yaxından izləyir və bizə daim "Azərbaycana daha çox dəstək verin, onu tək qoymayın", – deyə xəbərdarlıqlar edirlər. "Bizi də cəbhəyə göndərin" – deyən çoxları var. Əminəm ki, Sizə yazılan məktublarda da bunlar vardır".

Azərbaycanın həm döyüş meydanında, həm də hüquqi müstəvidə kifayət qədər üstünlük qazandığını xatırladan türkiyəli siyasətçi-diplomat məmnun olduğunu söylədi ki, danışıqlarda da özünə güvənən bir dövlət və millət kimi Sizin liderliyinizlə Azərbaycan güclü dövlət olduğunu bütün dünyaya göstərdi: " Bunu anlayan var, anlamayan var, anlamaq istəməyən var".

Bu sətirlərin müəllifi kimi mənim fikrim isə belədir: Anlayana təşəkkürlər, anlamayan özü bilər, anlamaq istəməyənlərə isə, anladarıq, İnşallah! Anlayacaqlar ki, Qarabağ Azərbaycandır!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***